*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 30 oktyabr 2019-cu il | № 84 (2401) | Qiyməti 30 qəpik


# Qoşulmama Hərəkatının Bakı Zirvə Görüşündə 120 dövlət Ermənistanı işğalçı ölkə kimi tanıdı

## Hərəkata üzv ölkələr Azərbaycanın ərazi bütövlüyünə ciddi dəstək ifadə etdilər



*Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə Görüşü Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyini daha da gücləndirdi. Qəbul edilmiş sənədlərdə dövlət və hökumət başçıları münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, hələ də həll olunmamasından təəssüf hissi keçirdiklərini bildirir və onun Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı əsasında həll olunmasının vacibliyini vurğulayırlar.*

AZƏRTAC xəbər verir ki, Yekun Sənədə ilk dəfə olaraq çox mühüm yeni bənd daxil edildi. Bu bənddə dövlət və hökumət başçıları güc yolu ilə ərazilərin zəbt edilməsinin yolverilməzliyini vurğulayır və təsdiq edirlər ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğal edilməsi nəticəsində yaranmış vəziyyətin qanuniliyini tanımayacaq, bu ərazilərdə iqtisadi fəaliyyətlər də daxil olmaqla, bu cür vəziyyətin saxlanması üçün hər hansı kömək göstərməyəcək. Burada bilavasitə işğalçı ifadəsindən istifadə olunur. Bu, Ermənistanın növbəti dəfə 120 dünya dövləti tərəfindən işğalçı kimi tanınması deməkdir.

Zirvə Görüşündə qəbul edilmiş sənədlər Azərbaycanın qlobal miqyasda mədəniyyətlərarası dialoqun təşviq olunması sahəsində nümayiş etdirdiyi liderliyi yüksək qiymətləndirir.

Yekun Sənəddə dövlət və hökumət başçıları nasist hərəkatının, neonasizmin və Vaffen SS təşkilatının keçmiş üzvlərinin, onlara abidə və heykəllərin ucaldılması, nasist keçmişi, nasist hərəkatı və neonasizmin qəhrəmanlaşdırılması naminə ictimai nümayişlərin keçirilməsi, eləcə də antiHitler koalisiyasına qarşı döyüşmüş və nasist hərəkatının iştirakçıları ilə iş birliyi etmiş şəxslərin milli azadlıq hərəkatının iştirakçıları kimi qələmə verilməsi daxil olmaqla, hər hansı bir formada qəhrəmanlaşdırılmasını qınadılar. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilmiş Sammitində Ermənistanda Qaregin Njdenin qəhrəmanlaşdırılması ilə bağlı səsləndirdiyi fikirlərə beynəlxalq səviyyədə verilən dəstəyin göstəricisidir.

Ermənistan və onun havadarlarının dəridən-qabıqdan çıxmasına baxmayaraq, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük diplomatik uğura imza atdı, 120 dövlətin təmsil olunduğu Zirvə Görüşünün nəticəsində Ermənistanın işğalçı dövlət kimi ifşa edilməsinə nail oldu.

Yekun Sənəddə deyilir: "Üzv ölkələrin dövlət və hökumət başçıları Azərbaycan Respublikasının təşəbbüsü ilə Qoşulmama Hərəkatının Bakı Sammiti çərçivəsində oktyabrın 24-25-də ilk dəfə olaraq Qoşulmama Hərəkatı Gənclər Sammitinin təşkil olunmasını alqışlayır və dayanıqlı tərəqqinin təmin edilməsi sahəsində çağırışlar barədə və onların cavablandırılmasına yönəlmiş birgə səylərə dair üzv dövlətlərin gəncləri arasında fikir mübadiləsinin aparılmasına imkan yaradan Gənclər Şəbəkəsinin yaradılmasını dəstəkləyirlər".

Dövlət və hökumət başçıları BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, Ermənistan-Azərbaycan münaqişəsinin hələ də həll olunmamasından təəssüf hissi keçirdiklərini bildirdilər. Onlar BMT Nizamnaməsində öz əksini tapmış gücdən istifadə etməmək prinsipini yenidən təsdiqlədilər və tərəfləri münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı əsasında danışıqlar yolu ilə həll olunmasına ruhlandırdılar.

Yekun Sənədə Azərbaycanın təklifi ilə aşağıdakı bəndlər daxil edilib:

Dövlət və hökumət başçıları silahlı münaqişə vəziyyətlərində məcburi köçkünlər üçün, o cümlədən onların təhlükəsiz və ləyaqətli geri qayıdışı və insan hüquqlarının təmin edilməsi, qorunması sahəsində davamlı həll yollarının təşviqində üzv dövlətlərin başlıca məsuliyyəti olduğunu təsdiqlədilər. Bundan başqa, dövlət və hökumət başçıları Azərbaycan Respublikası tərəfindən 2008-ci ildə mədəniyyətlərarası dialoqun təşviqi üçün mühüm qlobal platforma qismində irəli sürülmüş "Bakı Prosesi" kimi milli, regional və qlobal təşəbbüslərin sivilizasiyalar arasında səmərəli dialoqun qurulmasına töhfəsini qiymətləndirdilər.

Azərbaycan xalqı və hökumətinə təşəkkür və həmrəylik Sənədində deyilir: "Biz, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçıları Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən XVIII Zirvə Görüşü zamanı göstərdikləri yüksək qonaqpərvərliyə görə Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan xalqına və hökumətinə dərin təşəkkürümüzü bildiririk. Biz, həmçinin Prezident İlham Əliyevi Qoşulmama Hərəkatının tarixi Sammitinin uğurlu keçməsi üçün sərgilədiyi liderliyə görə təbrik edirik. Biz, dövlət və hökumət başçıları Azərbaycan Respublikasının Hərəkatın təməl prinsiplərinə, o cümlədən Bandunq prinsiplərində əks olunan ideya və məqsədlərə, həmçinin BMT-nin Nizamnaməsində əks olunan beynəlxalq hüququn norma və prinsiplərinə sadiqliyini yüksək qiymətləndiririk. Biz çoxtərəfliliyin təbliği, ədalət və bərabərhüquqlu beynəlxalq düzənə əsaslanan dinc və inkişaf edən dünyanın təşəkkül tapması istiqamətində Azərbaycan Respublikasının yorulmaz səylərini də alqışlayırıq. Biz, dövlət və hökumət başçıları Azərbaycanın müxtəlifliyə hörmət və qarşılıqlı anlaşmanın təşviq olunması sahəsində səylərini təqdir edirik. Bu xüsusda, Azərbaycan Prezidentinin rəhbərliyi ilə başlanmış və mədəniyyətlərarası dialoqun təşviqi üzrə əsas qlobal platforma kimi "Bakı Prosesi"nin töhfəsini yüksək qiymətləndiririk. Biz, dövlət və hökumət başçıları Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə möhkəm dəstəyimizi ifadə edirik və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi ilə bağlı səyləri ilə həmrəyliyimizi ifadə edirik".

# Brüsseldə Azərbaycan və ABŞ Müdafiə nazirlərinin görüşü keçirilib

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 25-də Brüssel şəhərində NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasına töhfə verən dövlətlərin Müdafiə nazirləri səviyyəsində təşkil edilən toplantısında iştirak edib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Əfqanıstandakı təhlükəsizlik və siyasi vəziyyət, əldə olunan son nailiyyətlər, missiyanın gələcəyi və bir sıra digər məsələlər müzakirə olunub.

* * *

Brüsselə səfər çərçivəsində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 25-də NATO Baş Katibinin müavini cənab Mirça Coane ilə görüşüb.

Tərəflər Azərbaycan-NATO əməkdaşlığı və perspektivləri, eləcə də regional təhlükəsizlik məsələləri haqqında fikir mübadiləsi aparıblar. M.Coane Azərbaycanın NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasına, habelə Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəyə görə öz minnətdarlığını bildirib, hərbi təhsil sahəsində və uyarlılıq platformasındakı əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində Azərbaycanın fəallığını yüksək qiymətləndirib.

Azərbaycanın Müdafiə naziri NATO-nun ölkəmizin ərazi bütövlüyünə verdiyi dəstəyə görə minnətdarlığını bildirib.

* * *

NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasına töhfə verən dövlətlərin Müdafiə nazirləri səviyyəsində Brüssel şəhərində keçirilmiş toplantısı çərçivəsində ABŞ tərəfinin təşəbbüsü ilə ABŞ Müdafiə naziri Mark Esper ilə Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov arasında görüş keçirilib.

Tərəflər Azərbaycan ilə ABŞ arasında ikitərəfli və NATO çərçivəsində hərbi əlaqələrin inkişaf perspektivlərini, o cümlədən hərbi, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əməkdaşlığın daha da genişləndirilməsini, eləcə də regional və qlobal təhlükəsizlik məsələlərini müzakirə ediblər.

Görüşdə, həmçinin sülhməramlılarımızın NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasında iştirakı barədə ətraflı fikir mübadiləsi aparılıb.

## Bakıda MDB üzv ölkələrinin Müdafiə Nazirləri Şurasının növbəti iclası keçiriləcək

Oktyabrın 30-da Bakıda Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin Müdafiə Nazirləri Şurasının növbəti iclası keçiriləcək.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyqu, Belarus Respublikasının Müdafiə naziri general-leytenant Andrey Ravkov, Qazaxıstan Respublikasının Müdafiə naziri general-mayor Nurlan Yermekbayev, Özbəkistan Respublikasının Müdafiə naziri general-mayor Bahodir Kurbanov, Tacikistan Respublikasının Müdafiə naziri general-polkovnik Mirzo Şerali və Qırğızıstan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Rayimberdi Duyşenbiyev iştirak edəcəklər.

İclasda cari hərbi əməkdaşlıq və qarşıda duran məsələlər müzakirə olunacaq.

# Bakıda Azərbaycan və Belarus Müdafiə nazirlərinin görüşü keçirilib

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov MDB üzv ölkələrinin Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Belarus Respublikasının Müdafiə naziri general-leytenant Andrey Ravkovla görüşüb.*



General-polkovnik Zakir Həsənov Azərbaycanın Belarus ilə bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığa böyük əhəmiyyət verdiyini qeyd edərək, hər iki ölkə arasında hərbi-texniki əməkdaşlığın daha da inkişafı üçün geniş imkanların olduğunu vurğulayıb. Azərbaycanın Belarusun müdafiə sənayesi şirkətləri ilə əməkdaşlığa xüsusi önəm verdiyini qeyd edən Müdafiə naziri hazırda hərbi-texniki sahədə əməkdaşlığın da uğurla inkişaf etdiyini və genişləndiyini bildirib.

Qeyd edilib ki, Azərbaycan ilə Belarus beynəlxalq təşkilatlarda aktiv fəaliyyət göstərir və bütün məsələlərdə qarşılıqlı dəstək verirlər.

Müdafiə naziri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində ölkəmizin suverenliyini və ərazi bütövlüyünü dəstəklədiklərinə görə Belarus rəhbərliyinə və xalqına minnətdarlığını bildirib.

General-polkovnik Zakir Həsənov Belarusun ölkəmizdə yeni hərbi attaşesi polkovnik Andrey Kaptiloviçi bu vəzifəyə təyin olunması münasibətilə təbrik edərək onun fəaliyyətinin ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan dostluq münasibətlərinin inkişafına yönələcəyinə əminliyini ifadə edib.

Tərəflər ikitərəfli hərbi əməkdaşlığın və hər iki ölkənin Müdafiə nazirlikləri arasında qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsinin zəruriliyini qeyd ediblər.

Görüşdə Azərbaycan ilə Belarus arasında hərbi sahədə mövcud əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri ətraflı təhlil edilib, dövlətlərimizin regional təhlükəsizliyə verdiyi töhfələr xüsusi vurğulanıb.

Görüşün sonunda Azərbaycan Respublikası və Belarus Respublikası Müdafiə nazirlikləri arasında 2020-ci il üçün ikitərəfli əməkdaşlıq Planı imzalanıb. Plan ekspert qruplarının qarşılıqlı səfərlərinin təşkili, birgə döyüş hazırlığı tədbirlərinin keçirilməsi, qabaqcıl təcrübə mübadiləsi və digər vacib məsələləri nəzərdə tutur.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



# Azərbaycan və Özbəkistanın Müdafiə nazirlikləri arasında hərbi əməkdaşlığın genişləndirilməsi məsələsi müzakirə olunub

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov MDB üzv ölkələrinin Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Özbəkistan Respublikasının Müdafiə naziri general-mayor Bahodir Kurbanov ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tərəflər hər iki ölkənin Müdafiə nazirlikləri arasında əməkdaşlığın daha da inkişafında maraqlı olduqlarını bildirib. Qeyd edilib ki, Azərbaycan ilə Özbəkistan arasında təhlükəsizlik sahəsində əməkdaşlıq Cənubi Qafqaz və Mərkəzi Asiya bölgələrində sülhün və sabitliyin möhkəmlənməsinə xidmət edir.

Görüşdə müdafiə və hərbi təhsil sahəsində birgə əməkdaşlığın indiki vəziyyəti və perspektivləri ilə bağlı bir sıra məsələlər müzakirə olunub, hərbi-texniki sahədə qarşılıqlı faydalı əlaqələrin möhkəmləndirilməsi barədə geniş fikir mübadiləsi aparılıb.

Görüşün sonunda Azərbaycan Respublikası və Özbəkistan Respublikası Müdafiə nazirlikləri arasında 2020-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq Planı imzalanıb.

*Döyüş hazırlığı*

# Azərbaycan əsgərinin döyüş əzmi yüksəkdir

Ali Baş Komandan İlham ƏLİYEV:

*Bu gün Azərbaycan Ordusu öz üstünlüyünü göstərir. Bizdə olan vətənpərvərlik ruhu, döyüş qabiliyyəti, texniki imkanlar, əlbəttə ki, üstünlüyümüzü şərtləndirir. Azərbaycan Ordusunun arsenalında mövcud olan texnika, silah-sursat Dağlıq Qarabağda və Ermənistanda istənilən hədəfi yüksək dəqiqliklə məhv edə bilər.*





*Ölkəmizin uzun illərdir müharibə şəraitində olması hərbi qüdrətimizin yüksəlməsini zəruri edir. Dünyanın hegemon dövlətlərinin, beynəlxalq qurumların ikili standart yürütməsi torpaqlarımızın işğaldan azad edilməsini ləngidir. Ümummilli lider Heydər Əliyev və onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə beynəlxalq tədbirlərdə ərazi bütövlüyümüzün hərbi təcavüzə məruz qaldığını israrla bəyan ediblər. Dünya ölkələrinin uzun illərdir biganəliyinin nəticəsidir ki, Ermənistan öz işğalçılıq siyasətini davam etdirir. Bu gün Azərbaycan dövləti münaqişənin sülh yolu ilə həllinə üstünlük versə də, bu o demək deyil ki, səbrimiz sonsuzdur.*

Müasir ordu quruculuğumuzun banisi ulu öndər Heydər Əliyev ordumuzun güclənməsi zərurətini izah edərkən vurğulayırdı ki, bu işlərin görülməsində əsas məqsəd torpaqlarımızı işğaldan azad etməyə qadir ordunu formalaşdırmaqdır. Bu siyasətin məntiqi nəticəsidir ki, Azərbaycan Prezidenti İlham Əliyev hər zaman ölkəmizin hərbi potensialının artırılmasını prioritet məsələlərdən biri olduğunu qeyd edib. Bu gün regionun ən güclüsü olan Azərbaycan Ordusunun daha da qüdrətlənməsi üçün müasir standartlara cavab verən silahlar alınır, maddi-texniki baza güclənir, şəxsi heyətin sosial-məişət şəraiti daha da yaxşılaşdırılır. Düşmən özü də bilir ki, ordumuzun hazırkı gücü münaqişəni həll etmək üçün yetərlidir.

Lakin təəssüflər olsun ki, Ermənistan rəhbərliyinin qeyri-ciddiliyi danışıqları yubadaraq vaxt qazanmağa hesablanıb. Onlar unutmamalıdır ki, hər şeyin başlanğıcı olduğu kimi, sonu da olur və ədalət gec-tez bərpa olunur.

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsinin zenit-raket artilleriya bölməsindəyik. Günün nizam qaydasına uyğun olaraq şəxsi heyət komandirlərinin rəhbərliyi altında dərs prosesində iştirak edir. İlk öncə kapitan Ruslan İsmayılovla tanış olduq. Zabit şəxsi heyətə göstərilən diqqət və qayğıdan söz açdı. "Bölməmizdə xidmət edən hərbi qulluqçuların əhval-ruhiyyəsi yüksəkdir. Komandanlığın əsgərlərin qayğı və problemləri ilə maraqlanması, habelə bölmədə yaradılan şəraitlə tanış olması şəxsi heyətin döyüş əzmini artırır. Bundan başqa əsgərlərimizin qidalanması, maddi-texniki təminatı da yüksək səviyyədədir. Bunların hamısı Vətən müdafiəçilərimizin əhval-ruhiyyəsinə müsbət təsir edən amillərdəndir. Bölmənin zabitləri olaraq bizlər də daim Vətənin keşiyində duran oğullarımızın qayğıları ilə yaxından maraqlanır, onların problemlərinin həlli üçün əlimizdən gələni əsirgəmirik."

Dərs başa çatdıqdan sonra baş leytenant Xəyal Ənvərli şəxsi heyətin döyüş ruhunun və ümumi hazırlığının yüksək olmasının zəruriliyini bildirdi. "Şəxsi heyətin xidmətinin əsasını təşkil edən döyüş hazırlığına mənəvi-psixoloji və fiziki hazırlığın çox böyük təsiri var. Əsl döyüşçü müharibəyə psixoloji və fiziki cəhətdən hazır olmalıdır. Hər bir hazırlıq bir-birilə bağlılıq təşkil edir və hər hansı hazırlığın yetərincə olmaması ümumi döyüş hazırlığına mənfi təsir göstərir. Gənc yaşlarımdan idmanla məşğul olmuşam. Sərbəst güləş üzrə ordu birinciliklərində nailiyyətlərim var. İdmana olan marağımı əsgərlərimizə də aşılamağa çalışıram. Bunun üçün tabeliyimdəki əsgərlərin döyüş hazırlığı ilə bərabər, fiziki hazırlığına da önəm verirəm. Çünki müharibə zamanı əlbəyaxa döyüş vacib şərtdir. Düşməni silahsız mübarizədə zərərsizləşdirmək üçün fiziki gücünü ortaya qoymalısan. Bundan əlavə bizə təhkim olunan texnika da fiziki güc tələb etdiyindən, əsgərlərin bədən tərbiyəsi yüksək səviyyədə olmalıdır".



Digər həmsöhbətim əsgər Aydın Qurbanov Salyan rayonundan həqiqi hərbi xidmətə çağrılıb. Ona təhkim olunmuş zenit-raket artilleriya qurğusu barədə məlumatlı olan əsgər A.Qurbanov dedi: "Gördüyünüz texnika uçan düşmən texnikasına qarşı mübarizə aparmaq üçün güclü vasitə hesab olunur. Qurğu "döyüşə" 25-40 saniyə, "səfərə" vəziyyətinə isə 35-50 saniyə ərzində gətirilə bilər. Döyüş heyəti 6 nəfərdən ibarət olan qurğunun əsas təyinatı düşmənin helikopter, təyyarə, pilotsuz uçuş aparatlarını və s. məhv etməkdən ibarətdir".

- Dağlıq relyefdə xidmət aparmaq çətindir? - sualıma əsgərin verdiyi cavab məni duyğulandırdı. Hər hansı bir hava şəraiti, yerləşdiyimiz dağlıq relyef bizim müqəddəs amalımızı yerinə yetirməyimizə mane ola bilməz". - Aydın dedi. - Mürəkkəb şəraitdə xidmət aparmaq fiziki dözümlülük tələb edir. Bundan başqa nizam-intizamlı, yerləşdiyimiz mövqenin iqlim xüsusiyyətlərinə bələd olmaq, təhlükəsizlik qaydalarına əməl etmək bizim əsas vəzifələrimizdəndir.

Əsgərlərdən Fərhad Hümbətov, Vaqif Fətiyev və Qadir Novruzovla da söhbət zamanı əmin olduq ki, hər bir əsgər hansı müqəddəs amala xidmət etməsindən agahdır və torpaqlarımızın işğaldan azad olunması üçün son nəfəsinəcən döyüşməyi özlərinə borc bilir.

Ön xətdə hərbi qulluqçularımızla söhbətimizdən bir daha əmin olduq ki, beynəlxalq qurumların və dünyanın hegemon dövlətlərinin uzun illərdir çözə bilmədiyi Dağlıq Qarabağ münaqişəsinin öhdəsindən Ali Baş Komandanımızın döyüş əmri ilə Azərbaycan əsgəri gələcək.

**Baş leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# "Ən yaxşı mühəndis şəhərciyi" müsabiqəsi keçirildi

*Azərbaycan Respublikasının müharibə şəraitində olması ölkədə hərbi sahənin inkişafını, hərbi sənayenin tərəqqisini, hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə saxlanılmasını prioritet məsələyə çevirir. Dövlət rəhbərliyi ölkənin etibarlı müdafiəsinin təşkili, hərbi potensialın gücləndirilməsi, qoşun birləşmələrinin döyüş hazırlığının müasir standartlara cavab verməsi kimi məsələləri daim diqqət mərkəzində saxlayır. Ölkəmizin iqtisadi cəhətdən qüdrətlənməsinin nəticəsidir ki, Azərbaycan Ordusu müasir dünya standartlarına uyğun qurulub və hazırda qarşıya qoyulan bütün vəzifələrin öhdəsindən gəlmək iqtidarındadır.*





Bu gün mütəmadi olaraq keçirilən irimiqyaslı təlimlər deməyə əsas verir ki, ordumuz və onun şəxsi heyəti döyüş meydanında düşmənin istənilən həmləsinə layiqli cavab vermək imkanına malikdir. Bunun bariz nümunəsi kimi 2016-cı ilin Aprel döyüşlərini göstərmək olar. Döyüşlərdə bütün qoşun növləri hazırlıqlarının nə qədər yüksək səviyyədə olduğunu nümayiş etdirdilər, əldə olunan qələbənin bir-biri ilə sıx əlaqəli fəaliyyətin nəticəsi olduğunu sübut etdilər. Sübut etdilər ki, döyüş zamanı qələbəyə doğru tək irəliləmək mümkün deyil, ayrılıqda hər biri böyük əhəmiyyət kəsb etmir. Belə ki, əgər artilleriya ordunun "vuran əlidirsə", mühəndis qoşunları ordunun "döyünən ürəyidir". Mühəndis qoşunları düşmənin itkisinə nail olmaq, onun irəliləməsini ləngitmək, bütün silah növləri vasitəsilə ona zərbə vurmaq üçün əlverişli şərait yaradır. Həmçinin düşmənin manevr etməsini məhdudlaşdırır və ya onları öz qoşunlarımız üçün lazım olan istiqamətdə hərəkət etməyə məcbur edir. Bu məqsədlərə istehkamçılar ərazidə qurulan mina-partlayış, süni şəkildə yaradılan maneələr, tikililər və obyektlərin dağıdılması ilə nail olurlar.

Bu günlərdə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2019-cu il üçün döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunda mühəndis qoşunlarının, hissə və bölmələrinin mühəndis hazırlığının yüksək səviyyədə təşkili və yerinə yetirilməsini təmin etmək, həmçinin şəxsi heyətin mürəkkəb və çətin döyüş şəraitində ərazi relyefinə uyğun mühəndis təminatı tapşırıqlarının praktiki olaraq yerinə yetirilməsini təkmilləşdirmək məqsədilə "Ən yaxşı mühəndis şəhərciyi" müsabiqəsi keçirildi.

Təqdim olunan mühəndis şəhərcikləri mühəndis qoşunları hissə və bölmələrinin döyüş hazırlığının yüksəldilməsinə digər qoşun növləri bölmələrinin mühəndis hazırlığı üzrə komandir və döyüş hazırlığı məşğələlərinin keçirilməsinə imkan yaradacaqdır.

Müsabiqədən sonra suallarımızı cavablandıran Müdafiə Nazirliyinin Mühəndis Qoşunları İdarəsinin rəisi polkovnik Anar Kərimov ilk olaraq mühəndis qoşunlarının tarixindən söz açdı. "Qədim zamanlardan bu peşənin nümayəndələri müdafiə və ya hücum xarakterli hərbi əməliyyatlara mühəndis dəstəyi verirdilər. Dünya müharibələrindən sonra mühəndis qoşunlarında xidmət edənlərin ixtisaslaşması xeyli genişləndi. Mühəndis maneələrinin sırasına partlayıcı maddələrin istifadəsi ilə hazırlanan müxtəlif minalar da əlavə edildi. Artıq bu peşəyə yiyələnənlər üçün ən əsas məsələ peşəkarlığı əldə etməklə yanaşı, təhlükəsizlik qaydalarına ciddi riayət etmək oldu. Yəni, qarşıya qoyulan hər bir tapşırığın yerinə yetirilməsi zamanı istehkamçı həyati təhlükə ilə üzbəüz dayanır. Belə çətin və şərəfli missiyanın öhdəsindən yalnız seçilmiş şəxslər gəlirlər".

Polkovnik Anar Kərimov onu da qeyd etdi ki, torpaqlarımızın işğal altında olduğu bir vaxtda mühəndis qoşunları üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlirlər. Mütəmadi olaraq hərbi qulluqçuların bilik və bacarıqları təlimlərdə yuxarı komandanlıq tərəfindən yoxlanılır. Keçirilən xüsusi-taktiki təlimlər zamanı mühəndis qoşunlarının mütəxəssisləri müasir avadanlıq və vasitələrdən istifadə etməklə ərazinin kəşfiyyatını aparır, qoşunların hərəkət yollarının hazırlanması, eləcə də şəxsi heyət şərti düşmən tərəfindən basdırılmış minaların aşkarlanması, onların xüsusi üsullarla məhv edilməsi, habelə təyin edilmiş sahəyə gəldikdən sonra ərazidə mühəndis-müşahidə postlarının yaradılması normativlərini də yerinə yetirirlər. Qeyd edək ki, nəzəri biliklərin praktiki cəhətdən təkmilləşdirilməsi qarşıya qoyulan tapşırıqlara bizi bir addım daha yaxınlaşdırır.

"Mühəndis şəhərciyi"nin məşğələlər zamanı şəxsi heyətin bilik, bacarıq və səriştəsinin təkmilləşdirilməsində böyük əhəmiyyəti vardır", - deyə idarə rəisi sözünə davam etdi.

- Mühəndis maneələri bütün döyüş növlərində qurulur. Düşmənə göstərdiyi təsirə və istifadə olunan vasitələrin xüsusiyyətlərinə görə mina-partlayış, partlamayan, elektrikləşdirilmiş, su və kombinəedilmiş, təyinatına görə isə tank, piyada, nəqliyyat, desant əleyhinə və çay maneələrinə bölünür. Qoşunlarda hazırlanan "Mühəndis şəhərciyi"ndə bütün bunların hamısını birləşdirməyə çalışmışıq. Bura gələn komandir şəxsi heyətə dərs keçən zaman praktiki olaraq istənilən məşğələnin elementini göstərmək imkanı qazanacaq.

İdarə rəisinin müavini polkovnik Ceyhun Cəfərov bildirdi ki, indiki dövrdə hərbi qulluqçunun hazırlığı nəzəri biliklərin çox olması ilə yanaşı, onların praktiki olaraq vərdiş halına çevrilməsindən asılıdır. Mühəndis şəhərciklərində fortifikasiya, mühəndis maneələri, partlayış işləri, maskalanma, hərbi kolon yolları, körpülər, su maneələri fənləri üzrə təlim nöqtələri hazırlanmışdır. Yaradılan təlim nöqtələrində mühəndis təminatı tapşırıqlarının praktiki olaraq yerinə yetirilməsinə nail olunmuşdur.



"Mühəndis şəhərciyi"ndə yaradılan müxtəlif növ maskalanmanın vacibliyindən danışan rəis müavini onu da dedi ki, maskalanma qoşun və obyektlərin düşməndən gizlədilməsi, onda qoşunların varlığı, yerləşməsi, tərkibi, vəziyyəti, fəaliyyəti və niyyəti barədə aldadıcı fikir yaratmağa yönəldilmiş kompleks tədbirdir. "Qoşunların gizlədilməsi, ərazinin maskalanma xüsusiyyətlərindən və məhdudgörmə şəraitindən istifadə etməklə qoşun və obyektlərin gizli yerdəyişməsi və yerləşməsi yerli materialların, tüstü və aerozolların istifadəsi, maskalanmalarda mühəndis tədbirlərinin yerinə yetirilməsi, həmçinin maskalanma intizamının tələblərinə ciddi riayət etməklə nail olunur. Unudulmamalıdır ki, maskalanma fəal, inandırıcı, fasiləsiz və müxtəlif olmalıdır."

İdarə rəisi onu da vurğuladı ki, şəhərciklərdə mövcud olan müxtəlif mühəndis maneələr sistemi qurulub. Tank əleyhinə xəndəklər, partlayan, partlamayan maneələr quraşdırılıb. "Bunu etməkdə məqsədimiz hərbi qulluqçulara həmin mühəndis maneələrini göstərmək, eləcə də onları qurmağı və rəf etməyi öyrətməkdir. Məşğələ zamanı mina sahələrində əl və partlayış üsulu ilə keçidlərin açılması, məftil maneələrin rəf edilməsi, maneələğvetmə qruplarının hərəkəti və tank əleyhinə xəndəklərdən keçilməsi üçün təlim nöqtələri hazırlanmışdır. Burada təlim keçən şəxsi heyət maneəni hansı üsulla rəf edəcəyini biləcəkdir. Bu da döyüşün qələbə ilə yekunlaşması üçün vacib amillərdəndir."

Polkovnik Anar Kərimov mühəndis şəhərciklərinin, həmçinin xidmətə yeni başlayan zabitlərimiz, kursantlarımız üçün tədris metodiki vəsait olaraq istifadə ediləcəyini bildirdi. "Son illəri analiz etsək, görərik ki, mühəndis qoşunlarının texniki bazası müasirləşdirilib. Müasir standartlara cavab verən texnikalar və avadanlıqlar alınaraq hərbi hissələrin istifadəsinə verilib. Davamlı olaraq şəxsi heyətin peşəkarlığının artırılması istiqamətində tədbirlər görülür. Əminliklə deyə bilərik ki, hərtərəfli diqqət və qayğı ilə əhatə olunan mühəndis qoşunlarımız qarşıya qoyulan bütün tapşırıqları qısa zaman kəsiyində və peşəkarlıqla yerinə yetirmək imkanına malikdir".

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Xalq-ordu birliyi



*Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətinin Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilməsinin nəticəsidir ki, ən çətin dağlıq şəraitdə belə hərbi xidmət nümunəvi təşkil olunur, şəxsi heyətin xidmət və məişət şəraiti yaxşılaşdırılır. 2018-ci ildə həyata keçirilən uğurlu Günnüt əməliyyatı bir daha göstərdi ki, hərbçilərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirmək əzmindədirlər. Bütün bunlar həm də dövlət-xalq-ordu birliyinin bəhrəsidir. Xalqla ordu arasında möhkəm əlaqənin, sarsılmaz birliyin mövcud olması ordumuzun gücünü daha da artırır. Bu günlərdə çətin dağlıq şəraitdə xidmət edən əsgərlərə isti qış geyimlərinin təqdim edilməsi qeyd olunanlara əyani misaldır.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək bildirib ki, sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2019-2020-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə hərbi hissələr üçün yun corabların toxunması işinin davam etdirilməsi tapşırılıb. Qarşıya qoyulan tapşırığın icrası istiqamətində məhdud fiziki imkanlı qadınlar tərəfindən toxunmuş 1500 cüt yun corab və 200 ədəd yun şərf əsgərlərimizə hədiyyə edilir. Corablardan 1000 cütü və şərflərdən 150-si Əlahiddə Ümumqoşun Ordunun çətin dağlıq şəraitdə yerləşən bölmələrinə, corablardan 500 cütü və şərflərdən 50-si isə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına təhvil verilir. Qeyd olunub ki, bu kimi tədbirlər məhdud fiziki imkanlı şəxslərin məşğulluğunu təmin etməklə bərabər onların maddi təminatlarının yaxşılaşmasına da müsbət təsir göstərir.

Əlahiddə Ümumqoşun Ordu Komandanının müavini general-mayor Elman Orucov tədbirdə çıxış edərək bildirib ki, Naxçıvanda yerləşən ordu, birləşmə və hissələr hərtərəfli qayğı ilə əhatə olunub. Dövlətimiz tərəfindən göstərilən bu diqqət hərbi qulluqçuların məsuliyyətini daha da artıraraq vətənpərvərlik hisslərinin güclənməsinə səbəb olub. Bu gün əsgərlərə isti qış geyimlərinin təqdim edilməsi növbəti qayğının ifadəsi, xalq-ordu birliyinin təcəssümüdür.

Tədbirdə zabit Tural Xələfov və əsgər Vasif İsazadə hərbi qulluqçular adından göstərilən diqqət və qayğıya görə minnətdarlıq ediblər. Çıxışların ardından yun corab və şərflər hərbi hissə və zastavalara təhvil verilib.



Göründüyü kimi, bu gün xalq orduya inanır, ordu xalqa güvənir. Deməli, yaradılan nümunəvi xidməti şəraitin və hərbi xidmətin düzgün təşkilinin, hərbi qulluqçularımızın yüksək intizama və döyüş qabiliyyətinə malik olmasının, əldə olunan uğurların və ən nəhayət, qazanılan zəfərlərin əsasında xalq-ordu birliyi dayanır.

**Leytenant
Nəriman NƏCƏFOV,
"N" hərbi hissəsi**

---

*Tibb xidməti*

# "Əsgərlərin sağlamlığını qoruyuruq"

*Gənc nəslin sağlam yetişməsi dövlətin qarşısında duran vacib missiyalardan biri sayılır. Ordumuzun mühüm hissəsini gənc nəslin təşkil etdiyini nəzərə alaraq Müdafiə Nazirliyinin rəhbərliyi, hərbi qulluqçularımızın sağlamlığına ciddi önəm verir. Bir deyim var: "Qüdrətli ordunun təməlini sağlam döyüşçülər qoyurlar". Böyük sərkərdələr yetişdirmiş Vətənimizin bugünkü müdafiəçilərinin də ata-babaları kimi sağlam və cəsur olması əsas şərtlərdəndir.*

Bu gün ölkəmiz müharibə şəraitindədir. Təbiidir ki, müharibənin olduğu yerdə hərbi təbabət (tibb xidməti) müasir tələblərə cavab verməli və şəxsi heyətin sağlamlığının keşiyində dayanan həkimlər yüksək biliyə malik olmalıdırlar. Ona görə də ordu sıralarında xidmət edən hərbçi-həkimlərimiz xarici ölkələrdə təşkil olunan kurs, konfrans və simpoziumlarda iştirak edərək təcrübə qazanır, özlərini daha da təkmilləşdirirlər. Rəhbərlik tərəfindən hərbi qulluqçuların sağlamlığına göstərilən diqqət və qayğının təzahürüdür ki, hospital, poliklinika, tibb məntəqələri və s. tibbi əhəmiyyətli obyektlər müasir avadanlıqlarla təmin olunub. Bu gün dünyanın güclü orduları sırasında yer tutan Azərbaycan Ordusunun şəxsi heyətinin sağlamlığının qayğısına qalmaq üçün hərbi hissələrdə istənilən şərait yaradılıb. Ordumuzda xidmət edən hərbi qulluqçuların sosial-məişət şəraiti, qidalanması, əşya-ərzaq təminatının yaxşılaşdırılması üçün vacib addımlar atılır.



"N" hərbi hissəsinin zabiti mayor Samir Əhmədovla birgə hərbi hissənin müasir tələblərə cavab verən tibb məntəqəsində olduq. Buradakı səliqə-sahman, tibb heyətinin gülərüzlüyü, xoş münasibəti insanda könül xoşluğu yaradırdı.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Nicat Quliyev ilk həmsöhbətimiz oldu. Dörd ildir ordu sıralarında xidmət edən hərbi qulluqçumuz iki müqəddəs vəzifəni eyni anda yerinə yetirməyin verdiyi qürurdan bəhs etdi. "Bu gün iki müqəddəs peşənin sahibi olduğum üçün qürurluyam. Əsgərlərimizin sağlamlığını qorumaq nə qədər qürurvericidirsə, bir o qədər də məsuliyyətlidir. Belə ki, insan taleyi və həyatı söhbət mövzusudursa, heç bir səhv və yaxud ehtiyatsızlıqdan söhbət gedə bilməz. Bunun üçün də tibb elminin sirlərinə dərindən yiyələnmək lazımdır. Vətən müdafiəçilərinin sağlamlığı bizim üçün vacibdir. Çünki ön xətdə torpaqlarımızın bütövlüyü uğrunda gecə-gündüz ayıq-sayıq xidmət aparan əsgərlərimizin sayəsində gündəlik həyat öz axarında davam edir. Bizim də üzərimizə düşən əsas vəzifə şəxsi heyətimizin sağlamlığını daim diqqət mərkəzində saxlamaqdır".

Əsgər Vüqar Məmmədov söhbət əsnasında tibb məntəqəsinin heyətindən razılığını bildirərək dedi ki, buradakı həkimlər hər bir xəstəyə diqqət və qayğıyla yanaşır, bütün lazımi köməklikləri göstərirlər. Əsgər V.Məmmədov, həmçinin qeyd etdi ki, yeməkxanada verilən qidaların və fəslə uyğun əşya təminatının keyfiyyəti şəxsi heyətin sağlamlığına müsbət təsir göstərən amillərdəndir.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Aygün Orucova əsgərlərin sağlamlığının keşiyində durmağı özünə müqəddəs amala xidmət bildiyini söylədi. Qeyd etdi ki, bölmədə şəxsi heyətə ilkin tibbi yardımın göstərilməsi üçün bütün imkanlar mövcuddur. Bölmənin yerləşdiyi yerə olan məsafənin uzun olması haqqında verdiyim sualı cavablandıran sanitar Aygün Orucova Vətənə, xalqa qəlbən bağlılığın heç bir əngəl tanımadığını dedi. "Ön xətdə xidmət edən əsgərlərimizin sağlamlığının keşiyində durmaqdan müqəddəs nə ola bilər?! Onlar gecə-gündüz torpaqlarımızı müdafiə edirlər. Əsgərlərimiz bizə Vətənin əmanətləridir və hər biri bizim üçün əzizdir. Şəxsi heyətin sağlamlığını nəzarətdə saxlamaq məqsədilə bölmələrdə vaxtaşırı profilaktik işlər aparırıq ki, bu da fəsil dəyişikliklərində şəxsi heyətin immunitetinin möhkəm olmasına xidmət edir. Səhhəti ilə bağlı müraciət edən hər bir hərbi qulluqçunu dinləyir, ciddi müayinə edirik. Bir sözlə, şəxsi heyətin sağlam olması üçün əlimizdən gələni əsirgəmirik."

**Baş leytenant
Fuad CƏFƏROV,
"Azərbaycan Ordusu"**

---

# Sloveniyada Mehdi Hüseynzadənin xatirəsinə həsr olunmuş yürüş keçirilib

*Sloveniyanın Nova Qoritsa regionunda Sovet İttifaqı və Sloveniya qəhrəmanı, Azərbaycanın igid oğlu Mehdi Hüseynzadənin (Mixaylo, 1918-1944) xatirəsinə həsr olunmuş yürüş keçirilib.*

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Avstriya, Sloveniya və Slovakiyadakı səfirliyi və Sloveniya-Azərbaycan Dostluq Cəmiyyətinin birgə keçirdikləri "Mixaylonun yolu" adlı tədbir çərçivəsində əfsanəvi qəhrəmanın döyüş yolu keçdiyi Nova Qoritsa regionunda gəzinti və piknik təşkil olunub. İştirakçılar Mixaylonun 1944-cü ilin noyabrında alman faşistləri ilə döyüşdə qəhrəmancasına həlak olduğu Vitovlye kəndinə, onun abidəsinin və xatirə muzeyinin yerləşdiyi Şempas, eləcə də məzarının olduğu Çepovan qəsəbələrinə yürüş ediblər.

Tədbir çərçivəsində yerli məktəblilər Sloveniyanın azadlığı uğrunda döyüşmüş qəhrəmanların şərəfinə mahnı və şeirlər, musiqi parçaları səsləndiriblər. Həmçinin rejissor Arzu Məhərrəmovun lentə aldığı "Mixaylo şəhərdədir" sənədli filmi nümayiş etdirilib.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Hərbi quruculuq və dövlət təhlükəsizliyi ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericilik aktları.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, hərbi qanunvericilik və dövlət təhlükəsizliyi ilə əlaqədar qanunvericilik aktlarından istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

**Suallar:**

**1. Azərbaycan Respublikasının hərbi quruculuq və dövlət təhlükəsizliyi ilə əlaqədar qəbul edilmiş qanunvericilik aktları.**

**2. Hərbi qulluqçuların hüquq və vəzifələri.**

### *Azərbaycan Respublikasının hərbi quruculuq və dövlət təhlükəsizliyi ilə əlaqədar qəbul edilmiş qanunvericilik aktları*

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra ölkədə siyasi hakimiyyətin böhranlı hala düşməsi və müttəfiq respublikalarda milli-azadlıq hərəkatının genişlənməsi Azərbaycanda Müdafiə Nazirliyinin bərpası üçün real imkanlar açdı. 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının Ali Soveti "Milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərar qəbul etdi. Həmin qərarın əsasında Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 1991-ci il tarixli Fərmanına əsasən, Azərbaycanda Müdafiə Nazirliyi təşkil edildi və milli ordunun yaradılmasına başlandı. 1991-ci il oktyabrın 9-da isə Respublika Ali Soveti tərəfindən ordu quruculuğunun hüquqi bazası olan "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanun qəbul edildi. Bu qanun ölkəmizdə hərbi quruculuq prosesinin ilk qanunu idi. Həmin qanunun 1-ci maddəsində Silahlı Qüvvələrin vəzifələri müəyyən olunur və göstərilir ki, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir".

1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Əsas Qanunu - Konstitusiyasında da Silahlı Qüvvələrlə və Vətəni müdafiə ilə bağlı maddələr öz əksini tapmışdır. Belə ki, 9-cu maddədə Azərbaycan Respublikasının öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Azərbaycan Ordusu və başqa silahlı birləşmələr yaratdığı, Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olduğu qeyd edilir. 76-cı maddədə isə Vətəni müdafiənin hər bir vətəndaşın borcu olduğu, onların qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməsi vurğulanır.

Silahlı Qüvvələrin fəaliyyətini hərtərəfli tənzimləmək məqsədilə 10 iyun 1992-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" qanun ən mühüm qanunvericilik sənədlərindən biri oldu. Bu qanunla Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın, əsgəri vəzifənin əsasları, gənclərin hərbi xidmətə hazırlıq qaydaları, hərbi xidmətə çağırışın qaydaları və şərtləri, hərbi vəzifəlilərin və hərbi çağırışçıların hərbi uçot qaydaları, səfərbərlik üzrə çağırışın və səfərbərlikdən tərxisetmə üzrə buraxılmanın əsasları, həmçinin Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün kadrlar hazırlamaq və Silahlı Qüvvələrin daimi döyüş və səfərbərlik hazırlığını saxlamaq məsələləri təsbit edilir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və qanunvericiliyə uyğun yaradılmış digər qoşun birləşmələrində hərbi xidmət keçilməsinin qaydasını müəyyən edən "Hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunu 1992-ci il noyabrın 3-də Milli Məclis tərəfindən qəbul olunmuşdur. Həmin qanuna görə, hərbi qulluqçular və hərbi vəzifəli şəxslər əsgər (matros), çavuş, gizir (miçman) və zabit heyətlərinə, zabit heyəti isə kiçik, baş və ali zabit heyətlərinə bölünür. Hər bir hərbi qulluqçuya və hərbi vəzifəliyə onun qulluq vəziyyətindən, hərbi və ya xüsusi hazırlığından, hərbi xidmət müddətindən, ehtiyatda vəziyyətindən, qoşun növünə və ya xidmətinə mənsubiyyətindən və xidmətlərindən asılı olaraq müvafiq hərbi rütbə verilir.

Qanunda həqiqi hərbi xidmətin müddəti də aydın şərh edilib. Dinc dövrdə bu müddət ali təhsili olan hərbi qulluqçular üçün 1 il, əsgər və çavuşlar üçün 1 il 6 ay müəyyən edilir.

1993-cü il noyabrın 26-da Azərbaycan Respublikası Milli Məclisi tərəfindən "Müdafiə haqqında" qanun qəbul edilmişdir. Sənəddə Azərbaycan Respublikasının müdafiəsi dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün, suverenliyinin və əhalinin təcavüzdən qorunmasının təmin olunması məqsədilə dövlət tərəfindən həyata keçirilən siyasi, iqtisadi, hüquqi, hərbi və sosial tədbirlər sistemi kimi göstərilir. Eyni zamanda, qanunda dövlət orqanlarının müdafiə sahəsində səlahiyyətləri müəyyən olunur.

"Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının qanunu 1994-cü il yanvarın 6-da Milli Məclis tərəfindən qəbul olunmuşdur. Bu qanun Azərbaycan Respublikasının Konstitusiyasına, digər qanunlarına və beynəlxalq öhdəliklərinə uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində hərbi vəziyyətin tətbiq edilməsinin əsaslarını, qaydalarını və hüquqi nəticələrini müəyyənləşdirir.

Hərbi vəziyyət Azərbaycan Respublikasının Prezidenti tərəfindən fərmanla tətbiq edilir. Prezident hərbi vəziyyətin tətbiq edilməsi haqqında fərmanı dərhal Azərbaycan Respublikası Milli Məclisinə təqdim edir və Milli Məclis 24 saat ərzində bu məsələyə dair qərar qəbul edir.

Dövlətimizin müstəqilliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunu, xalqın və ölkənin milli maraqlarını daxili və xarici təhdidlərdən qorumağa yönəlmiş siyasətin məqsəd, prinsip və yanaşmalarının müəyyən edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 may 2007-ci il müvafiq sərəncamı ilə "Azərbaycan Resbublikasının milli təhlükəsizlik konsepsiyası" təsdiq olunmuşdur. Konsepsiyaya əsasən, Azərbaycan Respublikasının təhlükəsizlik mühiti deyildikdə, onun suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, milli maraqları, davamlı inkişafı, əhalisinin rifah və dəyərlərinin qorunmasına təsir edən amillərin məcmusu başa düşülür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Hərbi doktrinanın yaradılması işçi qrupunun qarşısında əsas vəzifə kimi qoyulmuş və Azərbaycan Respublikası Milli Məclisinin 8 iyun 2010-cu il tarixli Qərarı ilə "Azərbaycan Respublikasının Hərbi doktrinası" təsdiq edilmişdir. Dövlətin, cəmiyyətin, o cümlədən bütün vətəndaşların maraqlarını özündə əks etdirən Hərbi doktrina milli təhlükəsizlik konsepsiyasının tərkib hissəsi olmaqla bərabər, həm də hərbi siyasətin əsaslarını müəyyənləşdirən strateji əhəmiyyətli sənəddir və ölkənin müvafiq sahədə təhlükəsizlik prioritetlərinin müəyyən edilməsində istisnasız rola malikdir. Elə məhz buna görə də Azərbaycanın ilk Hərbi doktrinasının təsdiq olunması təkcə Silahlı Qüvvələrin deyil, ümumiyyətlə dövlətimizin həyatında tarixi bir hadisədir. Bu sənəd Azərbaycanın hüquq və mənafelərinin daxili və xarici hərbi və digər təhdidlərdən qorunmasına yönəlmiş hərbi təhlükəsizlik sisteminin konseptual əsasını müəyyənləşdirir.

Hərbi-siyasi xarakterli, o cümlədən təcavüzkar separatizmlə şərtlənən həll olunmamış münaqişələrin mövcudluğunu, regiondakı münaqişələrin iqtisadi maraqlara mənfi təsirinin artmasını və nəhayət, regiondakı geosiyasi vəziyyətin qeyri-sabitliyini ölkəmizin yerləşdiyi regiona və bu regionun təhlükəsizlik mühitinə mənfi təsir göstərən amil kimi dəyərləndirən Hərbi doktrina ərazilərimizin bir hissəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılması faktını Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinə təhdid kimi xarakterizə edir. Doktrinada Azərbaycan Respublikasının müdafiə siyasətinin beynəlxalq hüququn norma və prinsipləri əsasında formalaşdığı xüsusi qeyd olunur. Ermənistan Respublikasına və işğal etdiyi Azərbaycan ərazilərində qurduğu separatçı rejimə hər hansı siyasi, hərbi, iqtisadi və digər dəstək Azərbaycan Respublikasına qarşı əməl kimi qiymətləndirilir.

Ordunun daim döyüşə və səfərbərliyə hazır vəziyyətdə saxlanılması, struktur, döyüş heyətinin, say tərkibinin, texniki təchizatın və səfərbərlik resurslarının səmərəli yetərliyə uyğun olması, Azərbaycan Ordusunda və başqa silahlı birləşmələrin strukturlarında qulluq edən mülki şəxslərin hüquq və azadlıqlarının təminatı, o cümlədən hərbi qulluqçuların ictimai-siyasi təşkilatların fəaliyyətində iştirakının yolverilməzliyi və s. Hərbi doktrinanın mühüm prinsiplərindəndir.

Hərbi doktrinada Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin hazırkı mərhələdə və orta müddətli perspektivdə əsas quruculuq, inkişaf və hazırlıq prioritetləri də göstərilib. Mürəkkəb və sürətli dəyişən əməliyyat şəraitində müasir müdafiə və hücum əməliyyatlarının aparılması bacarığına yiyələnməyi, düşmənə qarşı konseptual effektiv və praktiki müqavimət üsullarının işlənib hazırlanması, Silahlı Qüvvələrin əməliyyat qabiliyyətinin və xüsusi informasiya idarəetmə bacarığının inkişafı və s. əsas götürülüb.

### *Hərbi qulluqçuların hüquq və vəzifələri*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 dekabr 2011-ci il tarixli Sərəncamı ilə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq edilmişdir. Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi sahəsində hərbi vəzifənin və hərbi xidmətkeçmənin hüquqi tənzimlənməsi qaydalarını müəyyən edir.

Hərbi vəzifə - qanunvericiliklə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikası vətəndaşlarının hərbi qeydiyyatı, çağırışaqədərki hazırlığı, hərbi xidmətə çağırışı, çağırış üzrə və könüllü hərbi xidmətkeçməsi, ehtiyatda olması, toplanışlara çağırışı və toplanış keçməsi, səfərbərlik üzrə vəzifələrin yerinə yetirilməsidir.

Hərbi qanunvericilik, şübhəsiz ki, həm də vacib tərbiyəedici rola malikdir. Normativ aktlarda hərbi quruculuğun ideya və prinsiplərinin əks olunması, bu normaların həyata keçirilməsinin təmin edilməsi hərbi qulluqçuların dünyagörüşünə, şüuruna və davranışına təsir göstərir, dövlətin müdafiə qüdrətinin gücləndirilməsində, hərbi hissə və gəmilərdə hüquq qaydalarının möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda, hərbi qulluqçuların öz hüquq və vəzifələrini bilməsi, Azərbaycan hərbi qanunvericiliyinin müəyyən etdiyi qaydada xidmət etməsi, təminatlardan yararlanması üçün şərait yaradır. Bu baxımdan 1991-ci il dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası tərəfindən qəbul edilmiş "Hərbi qulluqçuların statusu haqqında" qanun xüsusilə diqqəti cəlb edir. Hərbi qulluqçular bu qanunla və Azərbaycan Respublikasının başqa qanunvericilik aktları ilə müyyənləşdirilən və hərbi xidmətin xüsusiyyətləri ilə bağlı olan məhdudiyyətlərlə Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarından istifadə edirlər. Hərbi qulluqçular Azərbaycan Respublikası vətəndaşlarının bütün vəzifələrini, habelə öz statusundan irəli gələn vəzifələri daşıyırlar.

Hərbi xidmət - dövlət qulluğunun xüsusi növü olmaqla Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və ya Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətlərdə Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin həyata keçirdikləri xidməti fəaliyyətdir. Xidmət fəaliyyətində hərbi qulluqçular Azərbaycan Respublikası Konstitusiyasının və digər qanunlarının tələblərini rəhbər tuturlar və siyasi məqsədlər güdən siyasi partiyaların və kütləvi ictimai hərəkatların üzvü ola bilməzlər. Dövlət sirrini açmamaq şərtilə, hərbi qulluqçuların söz və mətbuat azadlığına, əqidə azadlığına, öz əqidəsini sərbəst ifadə etməsinə təminat verilir.

Hərbi xidmətin şəraiti ilə əlaqədar olaraq hərbi qulluqçuların ümumi vətəndaşlıq hüquqlarının məhdudlaşdırılması, habelə onlara əlavə hüquqların verilməsi və əlavə vəzifələrin tapşırılması bu qanunla, digər qanunvericilik aktları və Silahlı Qüvvələrin nizamnamələri ilə müəyyən edilir. Vətəndaşlar qanunvericilikdə müəyyən olunmuş qaydada Azərbaycan Respublikası Silahlı Qüvvələrinə çağırılır, könüllü qaydada və bağlaşma yolu ilə Silahlı Qüvvələrdə xidmətə daxil olur, toplanışlara çağırılır, hərbi təhsil müəssisələrinə daxil olduqları gündən hərbi qulluqçu statusu əldə edir və Silahlı Qüvvələrdə xidmətdən buraxıldıqları, hərbi hissənin siyahısından çıxarıldıqları və ya kənar edildikləri, toplanışı başa çatdırdıqları gündən bu statusu itirirlər.

Azərbaycan Respublikasının vətəndaşı olan hərbi qulluqçu, eyni zamanda, seçkili dövlət orqanlarına seçmək və seçilmək, şəxsiyyət toxunulmazlığı, əmək, pul və maddi təminat, istirahət, təhsil, təklif, ərizə və şikayət hüquqlarına malikdir. Eyni zamanda, hərbi qulluqçuların mənzillə təmin olunmaq, sağlamlığın mühafizəsi və sağlamlığa vurulmuş zərərin ödənilməsi, ailələrinin sosial müdafiəsi, pensiya təminatı hüquqları vardır. Qanunla hərbi qulluqçuların dini əqidə azadlığına təminat verilir.

Hərbi qulluqçuların hüquq və vəzifələri, eyni zamanda, Silahlı Qüvvələrin nizamnamələrində öz əksini tapmışdır. Silahlı Qüvvələrin İntizam, Daxili Xidmət, Qarnizon və Qarovul Xidmətləri, Sıra nizamnamələri hərbi hissə və bölmələrdə hərbi intizamın yüksək səviyyədə saxlanılmasını təmin edir, hərbi qulluqçuların ümumi vəzifələrini müəyyənləşdirir.

Əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan dövlətçilik ənənələrinin qorunması, Azərbaycanın milli maraqlarına cavab verən addımların atılması, ölkənin istər beynəlxalq, istərsə də regionda özünəxas imicinin formalaşması vacib və təxirəsalınmaz məsələlərdəndir.

**İdeoloji İş və**
**Mənəvi-Psixoloji**
**Təminat İdarəsi**

# "Hərbi xidmətdə fərqlənməyə görə" medalı bəyə toy mərasimində təqdim edilib





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Ağstafa rayonunun Qırılı kəndində qələbəlik yaşanıb. Kənd sakini İltifat Bəhrəmovun bayraqlarla bəzədilmiş həyətində qurulan toy mağarına toplaşmış kənd sakinləri, qohumlar, yaxınlar, Müdafiə Nazirliyinin rəsmiləri, eləcə də müharibə veteranları, qazilər, mülki libas geyinmiş hərbi qulluqçular Aprel döyüşlərinin iştirakçısı, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Abuzər Bəhrəmovu toy günü münasibətilə təbrik edib, atasına və nənəsinə gözaydınlığı veriblər. Vətənpərvərlik mahnı və şeirləri səslənib, hərbi qulluqçularla kənd cavanları qara zurnanın sədaları altında qol-qola verərək yallı halayına qoşulublar. Bu toy ordu ilə xalqın mənəvi birliyinin əsl nümayişinə çevrilib.

Toyun ən yaddaqalan hadisəsi isə bəyə üçüncü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalının təqdim edilməsi olub.

Müdafiə Nazirliyinin rəhbərliyinin bəylə gəlinə səmimi təbrikini çatdıran Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani çıxış edərək bildirib ki, bu gün bəy kürsüsündə əyləşən silahdaşımız Azərbaycan Ordusunun nümunəvi əsgərlərindən olan Abuzər Bəhrəmovdur. O, İkinci Dünya müharibəsindən qayıtmayan babasının adını daşıyır. Abuzər də babası kimi könüllü əsgər gedib. 2016-cı ilin Aprel döyüşlərində həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi iştirak edib. Talış zirvəsinə zəfər bayrağımızın sancılmasında onun da payı var. O, əsgərliyini başa vurduqdan sonra rəhmətlik anası Qəribə müəllimənin xeyir-duası ilə yenidən Azərbaycan Ordusuna qayıdıb və bundan sonrakı həyatını da Vətənə xidmət peşəsinə həsr edib. Xüsusi kurslar keçib, təlimlərdə peşəkarlığını artırıb və təcrübəli tankçı kimi yetişib.

Nəzərə çatdırılıb ki, bir neçə ay öncə əsgər A.Bəhrəmov həyatını təhlükəyə ataraq tank mərmisinin atımının partlayışı nəticəsində baş vermiş yanğının daha da güclənməsinin qarşısının alınmasında fəal iştirak etmiş və ağır dərəcəli yanıq xəsarətləri almasına baxmayaraq sonadək yoldaşlarına yardımçı olmuşdur. Ağır vəziyyətdə olan əsgər hərbi tibbi helikopter ilə dərhal Bakıya çatdırılmış və Silahlı Qüvvələrin Baş Klinik Hospitalının peşəkar və təcrübəli tibb mütəxəssislərinin səyi nəticəsində ölümün pəncəsindən xilas edilmişdir.

Sonra Müdafiə Nazirliyinin rəsmisi Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu A.Bəhrəmovun Azərbaycan Respublikasının Prezidenti adından təltif olunduğu medalı alqış sədaları altında bəyə təqdim edib.

Saz musiqisinin sədaları altında görkəmli şair Davud Nəsibin "Torpaq" şeiri səsləndirilib.

Azərbaycan Yazıçılar Birliyi Qazax filialının rəhbəri, Əməkdar İncəsənət xadimi, şair-publisist Barat Vüsal "Yarama torpaq tökün" şeirini bəylə-gəlinə ərməğan edib.

Hərbi qulluqçular adından çıxış edən zabitlər Rasim Manafov, Elsevər Əhmədov və başqaları yeni ailə həyatı quran gənclərə xoşbəxtlik arzulayıblar.

Bəyin atası İltifat Bəhrəmov və Həqiqət nənə göstərilən diqqət və qayğıya görə Ali Baş Komandan cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

---

*Fiziki hazırlıq*

# Fiziki hazırlıq hərbi tapşırıqların yerinə yetirilməsində vasitədir

*Hərbi qulluqçuların fiziki cəhətdən möhkəm, güclü olmaları onların döyüş ruhunu daha da artırır. Məhz buna görə də müasir ordumuzda fiziki hazırlıq döyüş hazırlığının ayrılmaz tərkib hissəsidir. İstər arxa cəbhədə, istərsə də ön xətdə yerləşən hərbi hissələrdə yeni idman şəhərcikləri salınır, müasir idman alətləri ilə təmin edilmiş trenajor zalları fəaliyyət göstərir.*

Ön xətdə yerləşən "N" hərbi hissəsində şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinə cavabdeh zabit mayor Neymət Rəhimovla idman şəhərciyinə yollanırıq. Hərbi hissənin ərazisinə daxil olduğum ilk andan müasir idman şəhərciyi diqqətimi çəkmişdi - geniş ərazisi, müxtəlif idman alətləri, səliqəli futbol və voleybol meydançaları və s. İdman şəhərciyinin ətrafındakı yaşıllıq və əhatəsindəki uca şam ağacları necə əlverişli yerdə salındığını göstərirdi. Burada idman edən əsgərlərin çevik hərəkətlərini izlədikcə zövq alırsan.

Komandirlərinin nəzarəti altında nizamla məşq edən əsgərlərə yaxınlaşıram. "Həmişə sağlam və güclü olun" deyib əvvəlcə leytenant Zahir Hüseynovun, sonra isə əsgərlərin əlini sıxıram. "Əsgərlərimiz yaxşı bilirlər ki, işğal altında olan torpaqlarımızın azadlığı uğrunda döyüşə hər an hazır olmalıdırlar. Döyüş meydanında qalib gəlmək üçün isə təkcə döyüş hazırlığı deyil, fiziki hazırlığın da yüksək olmalıdır. Güclü və möhkəm olmalısan ki, düşməni hər şəraitdə məhv edə biləsən. Bütün bunları dərk edən şəxsi heyət fiziki hazırlıq dərslərinə xüsusi diqqət göstərir, idman alətlərində həvəslə məşq edir", - gənc zabit dedi.

Leytenant Zahir Hüseynovun dediklərinin əyani şahidi olduq. Əsgərlər komandirlərinin göstərişinə əsasən idman şəhərciyindəki alətlərdə həvəslə, yorulmadan məşq edir, idman hərəkətlərini çox ustaqlıqla yerinə yetirirdilər. Turnikdə dartınma, paralel qollarda enib-qalxma, ipə çıxma hərəkətlərini bitirib nəfəsini dərən əsgərlərlə həmsöhbət olduq. Əsgər Vüqar Əzizov hərbi xidmətini başa vurduqdan sonra ordu sıralarında qalıb xidmətini davam etdirmək istədiyini bildirdi.



- Hərbi xidmətimin xeyli hissəsi başa çatıb. Lakin əynimdən formanı çıxarmaq, komandirlərimdən ayrılmaq istəmirəm. Əsgəri xidmətim bitdikdən sonra hərbçi kimi yenidən ordu sıralarında xidmətimi davam etdirmək istəyirəm. Bütün əsgər yoldaşlarım kimi idmana böyük marağım var. Sizlərin də gördüyü kimi, bu meydançada idman məşqlərini etmək üçün yuxarı komandanlıq tərəfindən hər cür şərait yaradılıb. Biz də bu şəraitdən istifadə edərək öz üzərimizdə çalışır, fiziki hazırlığımızı daim artırırıq.

Əsgər Röyal Tağıyev bildirdi ki, təkcə idman saatlarında yox, boş vaxtlarında da idman şəhərciyində məşq edir.

- Döyüş meydanında çevik, möhkəm, dözümlü olmaq və verilən tapşırıqları cəld yerinə yetirmək üçün fiziki hazırlığımız yüksək olmalıdır. Ona görə də fiziki hazırlıq məşğələlərində həvəslə iştirak edirik. Həftəsonu komandirlərimiz idman yarışları da təşkil edirlər. Həmin yarışlarda həvəslə iştirak edir, həftə ərzində idmanda qazandığımız nailiyyətləri nümayiş etdiririk. Güclü və sağlam düşüncəli şəxsi heyət istənilən an düşməni məğlub etməyə hazırdır.

Əsgər Qurban Hüseynli hərbi xidmətin gənclərin həyatında önəmli olduğunu vurğuladı:

- Əsgəri xidmətdə hərbi bilik, döyüş hazırlığı və digər hazırlıqlarla yanaşı, fiziki hazırlığımızı da artırırıq. Hərbi xidmətdən əvvəl idmanla az məşğul olurdum. Dayaqdan dartınma hərəkətində, demək olar ki, çətinlik çəkirdim. Komandirimin və əsgər yoldaşlarımın da dəstəyi ilə hər gün idman saatlarında özümlə ciddi məşğul olmağa başladım. Artıq normativə uyğun dartına bilirəm. Fiziki hazırlığımız bizə döyüş ruhu aşılamaqla bərabər, özümüzə olan inam hissimizi də artırır.

Əsgərlərdən Elcan Əhmədov, Elşən Paşayev, Rəşad Abbasov, Əliyar Məmmədov, Arzuman İsrafilov, Kənan Əliyev və başqaları da öz fikirlərini bizimlə bölüşdülər. Hərbi hissədə hər cür məişət şəraiti ilə yanaşı, fiziki hazırlığın artırılması üçün də yüksək şəraitin yaradıldığını, həvəslə və yorulmadan idmanla məşğul olduqlarını qeyd edən əsgərlərimiz, Vətəni sevməyi, ona sadiq olmağı və layiqli xidmət etməyi özlərinə müqəddəs borc bildiklərini, Vətənin keşiyində durmaqdan şərəf duyduqlarını bildirdilər.

**Kapitan Məhəmməd NƏSİRLİ,**
**foto C.CƏFƏROVUNDUR**

---

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində daha bir qeyri-döyüş itkisi qeydə alınıb.

İşğalçı Ermənistan ordusunun 2001-ci il təvəllüdlü hərbi qulluqçusu Edqar Xanağyan təhlükəsizlik qaydalarını pozduğuna görə ağır xəsarət alıb. Hadisə ictimaiyyətdən gizlədilir. Müxtəlif bədən xəsarətləri alan hərbi qulluqçu E.Xanağyan hərbi hospitala yerləşdirilib.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində baş verən növbəti cinayət hadisəsinin araşdırılması qalmaqala səbəb olub.

Xankəndidən olan Sasun Hayrapetyan adlı əsgərin yaxınlarının bildirdiyinə görə, hadisənin şahidi olmasına baxmayaraq, müstəntiq ondan rüşvət tələb edib. Pulu ödəməkdən imtina edən S.Hayrapetyan uydurma izahata imza atmağa məcbur edilərək, hadisənin iştirakçısı kimi cinayət məsuliyyətinə cəlb olunma təhlükəsi ilə üzləşib. S.Hayrapetyanın yaxınları bildirib ki, əgər işi aparan müstəntiq hadisə ilə bağlı mövqeyini dəyişməsə, onlar Ermənistan Respublikası Baş Prokurorluğuna müraciət edəcəklər. Hadisənin şahidi olan iki hərbi qulluqçu S.Hayrapetyanın günahsız olduğunu yazıblar.

Faktla bağlı araşdırma və hadisə ətrafında qalmaqal davam etməkdədir.

**Hazırladı: İsa ELDAROĞLU**

# "Əsgərlərlə bir gün" mədəni-kütləvi tədbiri keçirilib

*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzi və Mədəniyyət Baş İdarəsinin birgə təşkilatçılığı ilə "N" hərbi hissəsində şəxsi heyətin asudə vaxtının səmərəli keçirilməsi məqsədilə "Əsgərlərlə bir gün" adlı mədəni-kütləvi tədbir keçirilib.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə Müdafiə Nazirliyinin, Mədəniyyət Baş İdarəsinin, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin nümayəndələri, "Azərbaycanın Səsi - Bala" musiqi müsabiqəsinin gənc istedadları və hərbi hissənin şəxsi heyəti iştirak ediblər.

Öncə ulu öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Tədbirdə çıxış edən Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş üzrə şöbəsinin müdiri Zümrüd Səmədova, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov və Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi sədrinin müavini Rəhim Mehdiyev hərbi hissədə təşkil olunan mədəni-kütləvi tədbirin önəmindən və bu tədbirin hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığına müsbət təsirindən danışıblar.

Mədəni-kütləvi tədbirin bədii hissəsində müğənni Elnur Məmmədov və "Azərbaycanın Səsi - Bala" yarışmasının iştirakçıları şəxsi heyət qarşısında konsert proqramı ilə çıxış ediblər.

Ovqat

# "Gözlə məni"

Mənə elə gəlir ki, bütün müharibələrin ilk gülləsi gecənin qaranlığında atılır...

Müharibə ölüm-itimdi, qan-qadadı, can üzən, ruh sarsıdan intizardı. Ömrü illərlə uzanan həsrətin kəfəni bəzən gözləyənin son nəfəsi olur. Müharibəyə - döyüşlərə gedənlər əzizlərinə bir ömürlük ümid verib gedirlər, "Gözlə məni" kəlmələrini sevdasına deyənlər də olur...

Döyüşlərə gedənləri gözləyirlər...

Gün dəyişir, ay dəyişir, il dəyişir - gözləyirlər, çəmənlərdə çiçək açır, çiçək solur, gül dəyişir - gözləyirlər. Ağaclar tumurcuqlayır, tumurcuqlar yarpaq olur, yaz ötüşür, yay sovuşur, payız gəlir, budaqlar yarpaq salır, yarpaqlar torpaq olur - gözləyirlər...

Müharibə qurtarır...

Müharibədən qayıtmayanların evlərinin qapısını ağrı-acılar, sıxıntılar, gümanlar, göynərtilər döyür, qayıtmayanların əvəzinə "əl boyda" "qara kağız" gəlir. Gündə neçə dəfə anaların, bacıların göz yaşlarıyla islanan "qara kağız"ın qara ovqatı qapı döymədən evlərə soxulur, hansı evin daldasında hamıdan xəbərsiz bir lal sevda için-için ağlayır: "Gözlə məni demişdin, ay insafsız... Gözlədim... Gözləyirəm... Gözləyəcəm..."...

Müharibədə şair sözü - şeir tövsiyə kimi, təsəlli kimi, qələbə odası kimi, öyüd-nəsihət kimi oxunur, hər misrası Vətənin vətəndaşına sözü kimi səslənir. Belə səslənişdə ilahilik çalarları da duyulur. Duyulan yaşanılır, yaşanılanlar istək kimi, arzu kimi, muraz kimi, dilək kimi yaşadılır. Belə oxunan, belə yaşadılan şeirlər şair-vətəndaşın, vətəndaş-şairin Vətənə sevgisini ifadə edir...

Böyük Vətən müharibəsi illərində şairlər bu gerçəklikləri də şeirləşdirirdilər, bu ifadəni də. Birinin digərinə təsiri olmadan neçə-neçə "Gözlə məni" şeiri yazıldı. Poetik duyum yazdırırdı bu şeirləri. Mənə elə gəlir ki, şair duyumunda qüdrət olduğunu hamı etiraf edər, edir, edəcək də.

Rus şairi Konstantin Simonovun yazdığı "Gözlə məni" şeiri Böyük Vətən müharibəsində bu mövzuda yazılmış ən gözəl şeirlərdən biri olsa da, azərbaycanlı döyüşçü Siruz Əliyev ondan neçə aylar əvvəl "Gözlə məni" adlı şeir yazmışdı. Bu şeir 78 ildi düşündürə-düşündürə oxunur. Mahnı kimi Süleyman Ələsgərovun musiqi yozumunda düşündürə-düşündürə dinlənilir. "Gözlə məni" həm şeir kimi, həm də mahnı kimi hamımıza o qədər doğmadır ki! Nədən belədi? - hər misrası ruhumuzun misrası olduğuna görə, azərbaycançılığın poeziyası olduğuna görə, neçə illər sonra İsa Hüseynovun "Saz" povestində İsfəndiyar kişinin həsrətinin, intizarının, əsər boyu bircə kəlmə sezilməsə də onun gəlinlərinə deyilmiş "Gözlə məni" olduğuna görə ... Böyük Vətən müharibəsində yazılan bu "Gözlə məni" şeiri mahiyyətinə, məzmununa, poetikasına görə sevilməkdədir, dinlənilməkdədir...

"Gözlə məni" həm də intizar yaşayanların şeiridi, mahnısıdı. Oğlu müharibədən qayıtmayan analar dünyada yoxdu; Böyük Vətən müharibəsində iştirak edən ən cavan əsgərin yaşayırsa, 90 yaşı var. 80-90 yaşlı bacılar müharibədən qayıtmayan qardaşının intizarını qılığa tutmaq istəyəndə dinləyir "Gözlə məni"ni...

1991-ci ildə Kəlbəcərdə kimsənin xəbəri olmayan bir sevda yaşanılırdı. Müharibə başlayanda, ermənilərin həmlələri, hücumları artanda Səməd də yerli müdafiə batalyonuna yazılmışdı, sevdasına "Gözlə məni" - demişdi, sevdası gözlərini yerdən ayırmadan "Gözləyəcəm...", - demişdi. Səməd döyüşlərə getmişdi...



Kəlbəcərlilər ata yurdundan iraq düşdülər...

Hərə bir tərəfdə sığınacaq tapdı. Gülgəzin atası Bakır Azərbaycanda qərarlaşmadı, Rusiyaya getmişdi...

Səməd Gülgəzdən ümid olası bir soraq ala bilməmişdi.

İllər keçmişdi... Səməd evlənməmişdi...

Gəncədə məskunlaşmışdı. Sürücüydü. Ailəsini taksi fəaliyyətiylə saxlayırdı...

Xan bağının yaxınlığında dayanmışdı.

Yaxınlaşmaqda olan qızı görəndə bədəni titrədi. Bilmədi gözlərinin işığı itdimi, artdımı. Baxdı. Bir də baxdı, bir də baxdı. O idi! On ilinin həsrəti ona sarı gəlirdi. Nə etsin? - yaxınlaşsınmı, kəlmələşsinmi, - bəlkə kiminsə külfətidi? Başqasının külfətiylə nə adla hal-əhval tutsun? Necə yaxınlaşmasın? - yaxınlaşan on ildi gündüzünü də gecəyə döndərən sevdasıydı. Kiminlə qarşılaşacağını bilmədən yaxınlaşırdı. Həminki xırdaca yeriş, gah yerdən üzülən, gah yerə dikilən ürkəcək baxışlar - elə bil bu yerişin, bu baxışın üstündən illər keçməmişdi...

Üz-üzə dayanmışdılar... İkisinin də gözləri dolub-boşalırdı... İkisi də illərlə ürəyində hamıdan gizlin yaşatdığını indi də dilə gətirməyə çətinlik çəkirdi...

İllər Gülgəzin alnına hiss edilməsi çətin olmayan ağrı-acı nişanələri düzmüşdü.

- Döyüşdə ağır yaralandım. Bir həftə huşsuz olmuşam. Mən hospitaldan çıxanda siz getmişdiniz. Öyrəndim ki, Rusiyadasınız.

Bir qədər duruxdu:

- Gözlə məni demişdim...

Gülgəzin yanaqlarına incə bir qızartı çökdü:

- Kimə sirr aça bilərdim. Təkcə xalam qızı Sərinə ürək qızdıra bilərdim, onu da qaçırtdılar, əlim heç kimə yetmədi...

Sözünə bir qədər ara verdi:

- Gözləyirdim...

Heç biri ailə qurmamışdı; sözarası bilindi...

...Bu sevdanı "Gözlə məni" yaşatmışdı; "Gözlə məni" deyənin də - Səmədin, gözləyənin də - Gülgəzin ruhunun mahnısıymış, "Gözlə məni".

...Səmədin maşınına tərəf getdilər...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə XİN: İŞİD terror qruplaşmasının rəhbəri İslam dinin və ölkəmizin ən qatı düşmənlərindən olub



İraq Şam İslam Dövləti (İŞİD) terror qruplaşmasının rəhbəri Əbu Bəkr əl-Bağdadi insanlığın, İslam dininin və Türkiyənin ən qatı düşmənlərindən biri olub.

Bu fikir əl-Bağdadinin öldürülməsi ilə bağlı Türkiyə Xarici İşlər Nazirliyi (XİN) bildirib. Məlumatda qeyd olunur ki, Türkiyə tərəfi beynəlxalq hərbi koalisiyanın ən fəal üzü kimi İŞİD və bu terror təşkilatını quran və idarə edən şəxslərə qarşı üz-üzə mübarizə aparıb. Türkiyə tərəfi İŞİD, eləcə də PKK-PYD terror qruplaşmaları ilə bundan sonra da qətiyyətli mübarizəni davam etdirəcək.

Qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp Ağ evdə jurnalistlərə açıqlamasında İŞİD terror qruplaşmasının rəhbərinin Suriyada keçirilən hərbi əməliyyat nəticəsində öldürüldüyünü bəyan edib.

## ABŞ hərbçiləri yenidən Suriyaya qayıdır



Amerika hərbçiləri İraqdan Suriyanın şimal-şərqindəki Haseke əyalətinə qayıtmağa başlayıb.

Əl-Valid sərhəd məntəqəsindən ölkə ərazisinə daxil olan hərbi kolonu helikopterlər müşayiət edir.

İraqın Müdafiə naziri Nəcah əş-Şamari amerikalı həmkarı ilə görüşdən sonra Suriyadan çıxan ABŞ hərbçilərinin dörd həftə ərzində İraq ərazisini tərk edəcəyini bildirmişdi.

Birləşmiş Ştatlar və müttəfiqləri 2014-cü ildən Suriya və İraq ərazisində İŞİD qruplaşmasına qarşı hərbi əməliyyatlar keçirirlər. Türkiyə ordusu Suriyanın şimal-şərqində hərbi əməliyyatlara başladıqdan sonra ABŞ Silahlı Qüvvələri Hələb, Əl-Haseke və Rakka əyalətlərində yerləşən bazaların çoxunu tərk edərək hərbçilərini İraqa aparmışdı.

## Zabaykalyedə 8 hərbçini güllələmiş əsgərin adı açıqlanıb



Rusiya Təhqiqat Komitəsi Zabaykalyedə 8 hərbçini güllələmiş əsgərin adını açıqlayıb.

Oktyabrın 25-də hərbçi yoldaşlarına Zabaykalyedəki 54160 saylı hərbi hissənin müddətli hərbi xidmət çəkən əsgəri Ramil Şamsuddinov güllə açıb. R.Şamsuddinov saxlanılıb, onun barəsində cinayət işi açılıb.

Xatırladaq ki, hadisə keşik çəkən əsgərlərin növbəsinin dəyişməsi zamanı baş verib. Təmirtexniki bazanın əsgəri olan R.Şamsuddinov tabel silahından atəş açaraq beş müddətli xidmət çəkən əsgər, bir muzdlu hərbçi və iki zabiti öldürüb, daha iki nəfər ağır yaralanıb.

## Əfqanıstanda hökumət qüvvələrinin keçirdiyi əməliyyat zamanı altı hərbçi həlak olub



Əfqanıstanda hökumət qüvvələrinin ölkənin şimalında yerləşən Qunduz əyalətində keçirdiyi əməliyyatın gedişində azı altı hərbçi həlak olub, yeddi nəfər isə yaralanıb.

Döyüşlər nəticəsində, həmçinin 15 silahlı öldürülüb. Həmçinin 10 silahlının yaralandığı bildirilir. Əfqanıstanda hökumət qüvvələri və kənd rayonlarında xeyli üstünlüyə yiyələnərək böyük şəhərlər istiqamətində hücumları genişləndirən "Taliban" hərəkatının silahlıları arasında qarşıdurmalar uzun müddətdir davam edir. Ölkə ərazisində İŞİD qruplaşmasının da fəallığı artır. Əfqanıstanın milli müdafiə və təhlükəsizlik qüvvələri beynəlxalq koalisiyanın hərbi dəstəyi ilə bütün ölkədə birgə əməliyyatlar keçirir.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 628
Nüsxə 3950